# Azərbaycan Ordusunun tam və qəti qələbəsinə az qalır



**_Azərbaycan Ordusu cəbhədə hər gün yeni bir tarix yazır. Hər gün yeni ərazilərimiz düşməndən azad edilir. İşğalçı qüvvələrə ağır zərbələr vurulur. Əks-hücum əməliyyatlarının davam etdiyi 27 gün ərzində artıq xeyli ərazilərimiz mənfur düşməndən təmizlənib. Qarşıdakı günlərdə yeni xoş xəbərlərin gələcəyinə böyük inamımız var. Ordumuzun tam və qəti qələbəsinə az qalır._**

### *Düşmənə ağır zərbələr vurulub*

Müdafiə Nazirliyinin yaydığı məlumata görə, oktyabrın 23-nə keçən gecə bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpaolunmaz zərər vurulub. Düşmən bölmələrində döyüş texnikası, silah-sursat və ərzaq çatışmazlığı mövcuddur. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir.

Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən boyun qaçırır, fərari kimi mövqelərini tərk edir.

Nazirliyin başqa bir məlumatına görə, cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində də Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər ələ keçirilib. Dünən gün ərzində bütün cəbhə boyu döyüşlər davam edib.

Oktyabrın 23-də saat 03.00-dan 09.00-dək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib. Digər 2 PUA xüsusi texniki vasitələrlə yerə endirilib.

Həmin gün saat 12.00 radələrində də Ağcabədi rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Nazirliyin məlumatına görə, oktyabrın 23-də gün ərzində də düşmənin şəxsi heyəti və döyüş vasitələri darmadağın edilib, mövqelərinə ağır zərbələr endirilib. Ermənistan mətbuatının verdiyi xəbərə görə, dünən ermənilər daha 27 hərbçinin itirildiyi barədə məlumat yayıblar. Bununla da Ermənistan ordusunun rəsmi açıqlanan itki sayı 927-yə çatıb.

### *Düşmən təxribatları*

Qeyd olunan müddətdə Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayıblar.

Dünən Azərbaycan Respublikasının Baş Prokurorluğunun mətbuat xidməti erməni təxribatı nəticəsində ölən və yaralanan mülki vətəndaşlarımızın sayını açıqlayıb. Məlumata görə, sentyabrın 27-dən oktyabrın 23-dək ermənilərin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində 63 mülki şəxs həlak olub, 298 nəfər yaralanıb. Bundan başqa, 398 mülki obyekt, 2156 yaşayış evi və 90 çoxmənzilli yaşayış binası yararsız hala düşüb.

Bu günlərdə Azərbaycanın igid döyüşçülərinə əsir düşən ermənilər isə Ermənistan ordusunun tərkibində muzdluların döyüşdüyünü etiraf ediblər. 2001-ci ildə Ermənistanın Şirak vilayətinin Artik şəhərində anadan olmuş Albert Mikayelyan Martuni şəhərindəki hərbi hissədə müddətli və müddətdən artıq hərbi qulluqçulardan, eləcə də kürd əsilli muzdlulardan ibarət 1500 nəfər olduğunu, muzdluların hər ay 600 ABŞ dolları pul aldıqlarını bildirib.

Əsir düşmüş Valera Ayrapetyan və Edik Tonoyan isə özlərinin olmayan torpaqlar uğrunda döyüşməkdən imtina etdiklərini deyiblər. Onlar erməni xalqına müraciət ediblər: “Erməni xalqına müraciət edirəm. Qardaşlar və bacılar, bizə aid olmayan şeyə görə döyüşmək lazım deyil. Oğullarınızı, ərlərinizi boşuna ölməyə göndərməyin”.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.-24 oktyabr.- S.8.